# “PANTEİZM”İN MÜASİR DÖVRDƏ FƏLSƏFİ İMKANLARI



**Ağalar MƏMMƏDOV**
*fəlsəfə doktoru,*
*Xəzər Universitetinin Fəlsəfə və humanitar elmlər departamentinin müdiri*

Mən panteizmə fəlsəfi kateqoriya və təsəvvür kimi yanaşmaq istəyirəm. İstəyirəm öyrənəm ki, o bu gün bizim müasir fəlsəfi problemlərimizdə hansı rolları oynaya bilər. Sırf fəlsəfi texnika və ya model kimi panteizmin bizə hansı təfəkkür üfüqlərini aça və ya qapaya biləcəyini qısaca aydınlaşdırmaq niyyətindəyəm.

***

Panteizm dünya (təzahür, insan)-allah (mahiyyət, əsas) əlaqələrindən – teizm, deizm və panenteizm ilə yanaşı – ancaq biridir. O, allahın dünyanı yaradıb, ondan kənarda dayanaraq, vaxtaşırı müdaxilələr edən (peyğəmbərlər göndərən, cəza və mükafat verən və s.) qüvvə kimi düşünülən allah anlayışına, teizmə qarşı qoyulmuşdur. Məsələ burasındadır ki, teizmdə daha çox ictimai-tarixi institut kimi din vurğulanırsa, panteizmdə fəlsəfi kateqoriya kimi allah vurğulanmış olur. Panteizm fəlsəfi, teizm dini mövqedir.

Mən panteizmi teizm ilə müqayisədə və din-allah haçası daxilində nəzərdən keçirməyə çalışıram. XVII əsr fransız maarifçisi Volter yazırdı ki, əgər allah olmasaydı, onu icad etmək lazım gələrdi, amma təbiətin bütün gedişatı onu göstərir ki, o, var. Lakin… «Ecrasez l'infame!», «Vurun alçağı!». Volterin alçaq dediyi dindir. Filosofun Allaha və dinə bir-birindən bu qədər fərqli münasibəti maraq doğurur. Burada söhbət dinin təqdim etdiyi allah anlayışının nə qədər doğru və faydalı olub-olmamasından, dinin allahdan sipər kimi istifadə etməsindən, daha doğrusu, dinin allahı üstələməsindən, onu öz monopoliyasına alıb saxlamasından gedir. Dinin allah anlayışı teistik səciyyə daşıyır.

Animizm, animatizm, dinamizm kimi səciyyələndirilən arxaik dini təsəvvürləri xatırlasaq, panteist təsəvvür teist təsəvvürdən tarixən daha qədim anlayışdır. Məlumdur ki, qədim insan «o dünya»-«bu dünya» fərqini qoymurdu; onun üçün «görünən dünya» ilə «düşünülən dünya» içiçə idi. Qədim insan tamamilə (pan) sakral sferada yaşayırdı. Ona görə də, o, bir çox qəfil, gözəgörünməz təbiət hadisəsini və ya gündəlik hadisəni gözəgörünməzdən «verilən» hansısa işarə kimi yozurdu. Panteist Hind təfəkküründə avatara anlayışı da teofanik işarəviliyin bir formasıdır. Miflərin yazıya köçürülməsilə birlikdə institutlaşmış struktur kimi din və bu yazıların (yazılı dinin) yaxşı bilicisi və yiyəsi kimi çıxış edən din adamları yarandı. Yeri gəlmişkən, xatırladım ki, «bibliya» «yazı» (kitab) deməkdir. Bir sözlə, teist allah anlayışı semit dinlərin ilk peyğəmbəri olan Musanın, allahı dünyanın ağası sayması ilə başladı. Teist dünyagörüşünü mənimsəyən islamda Rəbbül-aləmin kimi qəbul edilən Allah anlayışı iudaistlərin Adonay (mənim ağam) anlayışının davamıdır. Varlığı mahiyyət və təzahür kimi bölən Platonun Orta əsrlər dini dünyagörüşünü gen-bol qidalandırması da təsadüfi deyildi. Və nəhayət XIX əsrin sonundan etibarən Qərb fəlsəfəsində dinə qarşı formalaşan soyuq münasibətlə, platonizmə soyuq münasibətin üst-üstə düşməsi də təsadüfi deyildi.

«Allah» bir təsəvvür kimi, institutlaşmış struktur olan «din»dən daha qədimdir. Dindən əvvəl allah hamının idi, allah hamıya eyni uzaqlıqda idi. Sonrakı dövrdə din insanla Allahın arasına girdi, ruhanilər adı verilən brəhmənlər, maqlar, mollalar insanların Allaha birbaşa çıxışını bağladılar. Allahın dinin monopoliyasına düşməsi dedikdə biz bunu nəzərdə tuturuq.

Kütləvi şüurun Allah təsəvvürü kimi teizm daim dinin ideologiyası olmuşdur. «Allah özü bilən məsləhətdir», «Allah qoysa», «Allah qismət eləsə», «Allah saxlasın», «Allah eləməsin» və s. bu

kimi onlarla kəlam və dua sözləri personifikasiya edilmiş ilahilik təsəvvürünün ifadəsidir. Bu təsəvvürün adı teizmdir.

Panteizm eleatist «Bir ilə Hər şey» (Hen kai Pan) arasında qurulmuş fəlsəfi əlaqənin formalarından birinin ifadəsidir. «Bir» və yaxud «Vahid» – mahiyyət, əsas, substans, ilk təkanverici, mütləq və nəhayət Allahdır. Universumun məcmuu kimi «Hər şey» kateqoriyasına isə, onu N.Hartman sayağı, təbəqələrə və ya sahələrə bölərək aydınlıq gətirilə bilər: Fiziki qanunların hakim oluğu cansız əşyaların sahəsi (inorqanik sfera), bioloji qanunların hakim olduğu canlılıar sahəsi (orqanik sfera), nəhayət şüurun və azadlığın mövcud olduğu insan sahəsi (noosfera).

Bu mənada panteizmi iki cür oxumaq olar: «Bir – Hər şeydir» və ya «Hər şey birdir».

### *BİR – HƏR ŞEYDİR!*

1. Allahın ayrılıqda götürülmüş hər bir şey üzərində hegemonial və determinant statusunu daha qatı formada bərqərar edən «Bir – Hər şeydir» panteizmi teizmin davamından başqa bir şey deyildir. Bu, fəlsəfənin dinə kəniz olduğu dövrləri yada salır.

«Bir (Allah) – Hər şeydir» kimi qaba panteizm bizə IX əsrdə yaşamış xristian teoloqu Eriugenanın «Hər bir şey Allahdan, Allahda, Allaha» kredosunu assosiasiya edir. Bu, panteizmin teosentrist şərhidir.

«Bir – Hər şeydir» panteizmi eyni zamanda monizmdir. Lakin bu gün nəinki monizm, hətta dualizm belə, müasir fəlsəfi problemlərin həllində nə yetərli, nə də yeganə model ola bilir. Sadəlik, monizm kimi panteizm paradiqması arxaikdir. Varlığın vahid və statik strukturu yoxdur (post-strukturalizm), o, amorfdur (A.Berqson), onun vahid əsası da yoxdur (post-idealizm, post-fəlsəfə). Belə bir halda, yenidən Allahı varlığın təməlinə yerləşdirmək, fəlsəfənin kütləvi şüur qarşısında geri çəkilməsi demək olardı.

### *HƏR ŞEY – BİRDİR!*

2. Teizmin davamı olan, monist və teosentrist səciyyəli panteizmə müqabil, «Hər şey birdir» panteizmi fəlsəfi təfəkkürə uğurlu üfüqlər aça bilər. «Hər şey birdir» prinsipinə görə, hər bir şey əsasdır, yəni heç nə təkbaşına əsas deyildir. Burada Allahın hegemonial statusuna qarşı, elementlərin ekvivalent ko-operasiyasından, təkbaşına determinantlığa və monokauzallığa qarşı sinergizmin üstünlüyündən söhbət gedir. Tamda hər bir hissənin və hər bir fərdin əhəmiyyətini, rolunu və dəyərini tanımaqla «Hər şey birdir» panteizmi plüralizm və humanizmdir.

Bütün təkcələrə ekvivalent status verməklə, «Hər şey birdir» panteizmi Allahı dinin monopoliyasından çıxarmış olur. O, Allah-insan əlaqəsini birbaşa, araya dini qoymadan qurduğu üçün mistisizmdir. Panteizmin dinin ideologiyası kimi teizmə qarşı qoyulmuş, Allaha prioritet verən fəlsəfi mövqe olduğunu deyərkən, biz «Hər şey birdir» panteizmini nəzərdə tuturuq.

Totalitar monarxiya rejimləri daim kütlənin teist dünyagörüşünün (və yaxud teizmin davamı kimi Bir – Hər şeydir panteizminin) dəyişməməsində maraqlı olmuşdur. Dinlə siyasətin əlbir olduğu məqamlardan biridir bu. Plüralist və humanist panteistlərin eyni vaxtda, həm teist Allah təsəvvürünü mənimsəyən ortodoksal din, həm də monarxik siyasi rejimlər tərəfindən təqib olunmasının səbəbi budur. Panteistlərə qarşı siyasi motivlərlə, dini motivlər həmişə üst-üstə düşmüşdür. Sosio-kosmik paralellikdən çıxış etsək, «Allah – Hər şeydir» formulu, avtokratik, totalitar ictimai-siyasi rejimlərə ideoloji baza təşkil edə bilər. Teizmin (və monist panteizmin) ictimai-siyasi həyatda törəməsi diktatura, panteizminki isə demokratiyadır. Ona görə də, panteizmin kollektivizmlə nəticələnən monist təfsirinə qarşı, individualizmə dəstək verən plüralist təfsiri müasir dövrümüz üçün daha uyğun və daha funksionaldır. Panteizm təkcənin və fərdin məğlubiyyəti olmamalıdır. Qalib tərəf «Allah» olsa belə.

### İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Fromm E. Haben oder Sein: Die Seelischen Grundlagen einer neuen Gesellschaft. Stuttgart; Deutsche Verlags-Anstalt, 1996

2. Gasper H., Müller J., Valentin F. Lexikon der Sekten, Sondergruppen und Weltanschauungen. Freiburg, Basel, Wien: Verlag Herder, 1990

3. Hügli A., Lübcke P. (Hg.) Philosophie im 20 Jahrhundert: Phänomenologie, Hermeneutik, Existenzphilosophie und Kritische Theorie: in 2 Bände, I B. Hamburg: Rowohlt Taschenbuch Verlag, 1994

4. Aristoteles. Metafizika. İstanbul: Sosyal yayınlar, 1996